# Azərbaycan yeni iqtisadi yüksəliş mərhələsindədir





***Prezident İlham Əliyevin son illər ərzində neft və qazdan asılılığın azaldılması məqsədilə sənaye parkları və məhəllələrinin, aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması, müasir texnologiyaların, elektron kənd təsərrüfatı sisteminin tətbiqi, özünüməşğulluq proqramının icrası, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlbi və s. tapşırıqları ilə bağlı müsbət göstəricilər əldə olunub. Möhkəm iqtisadi bazanın yaradılmasının nəticəsidir ki, təkcə pandemiyanın hökm sürdüyü və müharibə aparıldığı 2020-ci ildə respublikada 72,4 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib, sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 12,5 faiz artıb. Respublikanın enerji sistemində reabilitasiya proqramı uğurla həyata keçirilib. Xarici tərəfdaşlar cəlb edilməklə bərpaolunan enerji növləri üzrə elektrik stansiyalarının tikintisinə dair müqavilələr reallaşdırılıb.***

Azərbaycan bu gün 2021-2030-cu illəri əhatə edən keyfiyyətcə yeni bir strateji mərhələyə daxil olub. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi strategiya və dərin islahatlar ölkəmizin iqtisadi qüdrətinin daha da artacağına, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin formalaşacağına zəmin yaradıb.

Hazırda postpandemiya dövrünə ciddi hazırlıq işləri görülməkdədir. Ölkə Prezidenti tərəfindən “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” barədə sərəncam imzalanması bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də vurğulanır ki, milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühitdən təsirlənə bilir. Bu səbəbdən uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığı gücləndirilməli, makroiqtisadi sabitlik daha da möhkəmləndirilməlidir. Ölkədə makroiqtisadi sabitliyin və dayanıqlığın gücləndirilməsi məqsədilə yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmalıdır.

Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasından, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Son 18 ildə respublikamızın əldə etdiyi uğurlu nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi həyata keçirilən siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirib, sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişaf üçün etibarlı zəmin yaradıb. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə və iqtisadi böhranı şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

Azərbaycan əvvəlki illərdə olduğu kimi, cari ilin ötən aylarında da Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf yolu keçib, bütün sahələrdə ciddi nailiyyətlər əldə edilib, respublikamız öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini gerçəkləşdirib. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

Yeri gəlmişkən, hazırda ölkəmizdə yaradılan biznes mühiti, siyasi və makroiqtisadi sabitlik Azərbaycanın regiondakı xüsusi rolunu fərqləndirir. Bu baxımdan respublikamızda hər bir vətəndaşın, sahibkarlığa meylli olan hər bir şəxsin öz potensialını reallaşdırması üçün əlverişli şərait yaradılır. Bu gün yalnız iş yeri tapmaq deyil, eləcə də iş yeri yaratmağa çalışan hər bir vətəndaşa dövlət tərəfindən bir sıra tədbirlər vasitəsilə müvafiq qanunvericiliyin tətbiqi yolu ilə dəstək verilir.

İqtisadiyyatın, o cümlədən özəl sektorun inkişafı istiqamətində həyata keçirilən sistemli islahatlar, həmçinin sahibkarların güzəştli kreditlərlə təmin olunması bunun parlaq ifadəsidir.

İqtisadi tərəqqidə “Bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir” prinsipini strateji kurs kimi müəyyənləşdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması və s. vəzifələri uğurla gerçəkləşdirilir.

Ölkə iqtisadiyyatının real sektorunun sürətli inkişafının təmin olunması istiqamətində hökumətin düşünülmüş plan əsasında reallaşdırdığı layihələr, hətta pandemiya dönəmində bu sektorun ayrı-ayrı sahələrində yetərli pozitiv nəticələr əldə etməyə imkan verir.

Dünya iqtisadiyyatında ciddi geriləmələrin nəzərə çarpdığı və bu səbəbdən Azərbaycan iqtisadiyyatının da müəyyən çətinliklər yaşadığı indiki vaxtda qeyri-neft sənayesində 10 faizdən çox artımın qeydə alınması dövlətimizin başçısının vurğuladığı kimi, hökumətin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində apardığı düzgün siyasətin məntiqi nəticəsidir.

Sənayenin qeyri-neft-qaz sektorunda artım qeydə alınması təsadüfi deyil. Bu, neft sənayesində əldə edilən artımın mərhələli şəkildə qeyri-neft sektoruna transfer olunması deməkdir.

Belə bir vəziyyət həm də ondan xəbər verir ki, qeyri-neft sektoru əldə edilən iqtisadi artıma dominant olaraq təsir göstərir. Yeri gəlmişkən, qeyd edək ki, hazırda qeyri-neft sektorundakı artım ümumi iqtisadi artımdan daha yüksəkdir.

Bu gün dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, qeyri-neft sənayesinin inkişafı məqsədilə sənaye parkları və məhəllələrinin yaradılması, rezidentlərin fəaliyyətinin genişləndirilməsi, yeni iştirakçıların cəlb edilməsi diqqət mərkəzində saxlanılır.

Azərbaycanın sənaye parklarında yüksək nəticələrə nail olmaq üçün rezidentlərin səmərəli fəaliyyəti məqsədilə hər cür şərait yaradılıb, vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər tətbiq edilib. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunublar. Bundan başqa, sənaye parklarında dövlət vəsaiti hesabına müasir infrastruktur yaradılıb, sahibkarların vəsaitlərini investisiya qoyuluşuna yönəltmələri təmin edilib.

Qeyri-neft sənayesinin inkişafında mühüm rol oynayacaq bir məqamı da qeyd etmək istərdik. Belə ki, Prezident İlham Əliyevin müvafiq fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki “Sumqayıt Kimya Sənaye Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətin əsasında İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılıb. Bu məqsədlə ölkədəki bəzi sənaye parkları və məhəllələri “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinin tabeliyindən çıxarılıb. Prezident İlham Əliyev bununla bağlı 22 yanvar 2021-ci il tarixli sərəncam imzalayıb.

Sərəncama əsasən, Neftçala Sənaye Məhəlləsi, Mingəçevir Sənaye Parkı, Qaradağ Sənaye Parkı, Masallı Sənaye Məhəlləsi, Pirallahı Sənaye Parkı, Hacıqabul və Sabirabad sənaye məhəllələri İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyinə verilib.

Respublikada İqtisadi Zonaların İnkişafı Agentliyinin yaradılması ölkədəki mövcud sənaye parkları, sənaye məhəllələri və aqroparklar sahəsində idarəetməni, habelə nəzarət mexanizmlərini daha da təkmilləşdirmək, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq, daha sıx koordinasiyanı, həmçinin sistemliliyi təmin etmək məqsədi daşıyır.

Sənaye parkları, sənaye məhəllələri və aqroparkların işinin səmərəli, yeni tənzimləyici və idarəetmə çərçivəsində təşkili ölkəyə sərmayə axını, ixracın genişlənməsi və iş yerlərinin yaradılması prosesini sürətləndirəcək. Bununla bərabər 4-cü sənaye inqilabının texnologiyalarının ölkəyə transfer edilməsini də şərtləndirəcək.

Yeri gəlmişkən, qeyri-neft sənayesinin inkişafına göstərilən dəstək güzəştlərinin nəticəsidir ki, indiyədək respublikamızda fəaliyyət göstərən sənaye parklarına 3,5 milyard ABŞ dolları məbləğində investisiya yatırılıb, 3,3 milyard manatlıq satış həyata keçirilib və 25 faiz məhsul ixrac olunub.

Son illərdə Azərbaycanın bölgələrində də sənayenin qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin aprelin 20-də Hacıqabula səfəri çərçivəsində rayonda Sənaye Məhəlləsinin istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Xatırladaq ki, Hacıqabul Sənaye Məhəlləsi Azərbaycan Prezidentinin 2017-ci il 25 iyul tarixli sərəncamı ilə yaradılıb. Burada dövlət vəsaiti hesabına lazımi infrastruktur qurulub, inzibati bina, texniki və köməkçi binalar tikilib, abadlıq işləri aparılıb.

Hacıqabul Sənaye Məhəlləsinin tikinti materialları istehsalı avadanlıqları istehsal edən və investisiya dəyəri 12 milyon manat olan “Elberg” müəssisəsində 100 iş yeri yaradılıb. İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi verilən zavodda Türkiyə, Yaponiya və Finlandiya texnologiyaları tətbiq edilib. İstehsal olunan məhsulların daxili bazarla yanaşı, xarici ölkələrə də ixracı nəzərdə tutulub.

Sənaye Məhəlləsində fəaliyyət göstərən daha bir müəssisənin – plastik su qabları istehsal edən “Uysal Ambalaj”ın investisiya dəyəri 1,44 milyon manatdır. Zavodun maliyyələşməsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 700 min manat güzəştli kredit verilib. Yaponiya texnologiyasından istifadə edilən müəssisə ildə 350 min ədəd plastik su qabı istehsal etmək gücünə malikdir.

Vətən müharibəsi nəticəsində 30 ilə yaxın dövr ərzində işğal altında qalan torpaqların azad edilməsi Azərbaycanın iqtisadi imkanlarını daha da genişləndirməyə əlverişli şərait yaradıb. Düşməndən təmizlənən ərazilərin sənaye potensialı kifayət qədər yüksəkdir. Bu isə bölgənin yaxın zamanlarda ölkə iqtisadiyyatında əlavə dəyər yaradacağını deməyə əsas verir. Buna görə də Qarabağda da sənaye parklarının yaradılması nəzərdə tutulur. İqtisadiyyat Nazirliyi tərəfindən hazırda bu istiqamətdə müvafiq işlər görülür.

***V.BAYRAMOV, “Xalq qəzeti”***